# آداب السفر وأحكامه (للجمعية)

# Səfər ədəbləri və hökmləri.

# Səfər ədəbləri və hökmləri.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur! Peyğəmbərimiz Muhamməde, onun ailəsinə və bütün səhabələrinə salat və salam olsun!

Daha sonra:

Bu, səfər ədəbləri və hökmləri haqqında qısa bir risalədir. Biz bu risalədə, müsafirin ehtiyac duyacağı əsas məsələləri izah etməyə çalışdıq.

Uca Allahdan bu risaləni Özünün mübarək Üzü xatirinə (xalis Onun razılığı üçün) səmimi (ixlaslı) etməsini və bununla bütün müsəlmanlara fayda verməsini diləyirik!

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Dillər üzrə Elmi Komitəsi.

## Birinci: Səfər ədəbləri.

Həcc və ya digər ibadətlər üçün səfərə çıxan şəxs aşağıdakılara diqqət yetirməlidir:

1. Uca Allahdan hər bir işdə, o cümlədən vaxt, nəqliyyat vasitəsi, yol yoldaşı və yol istiqaməti kimi məsələlərdə xeyir diləyir (istixarə). Əgər yollar çoxdursa, o zaman bu məsələlərdə təcrübəli və saleh insanlardan məsləhət alır. Amma həcc və ümrə üçün səfərə çıxmaq məsələsinə gəldikdə isə şübhəsiz ki, bu səfər xeyirli səfərdir. İstixarənin edilmə qaydası isə belədir: İnsan iki rükət namaz qılır sonra Peyğəmbərdən, sallallahu aleyhi va səlləm, varid olan dua ilə Allahdan işin xeyirlisini istəyir.

2. Həcc və ümrə edən şəxs bu ibadətləri yalnız Allahın rizasını qazanmaq və Ona yaxınlaşmaq məqsədi ilə yerinə yetirməlidir. O, bu əməlləri dünyəvi mənfəət əldə etmək, özünü göstərmək, ləqəblər qazanmaq və ya riyakarlıq və şan-şöhrət arzusu ilə etməməlidir. Çünki bütün bunlar onun əməlinin batil olmasına və qəbul edilməməsinə səbəbdir. Uca Allah belə buyurur:

﴿قُلۡ إِنَّمَآ أَنَا۠ بَشَرٞ مِّثۡلُكُمۡ يُوحَىٰٓ إِلَيَّ أَنَّمَآ إِلَٰهُكُمۡ إِلَٰهٞ وَٰحِدٞۖ فَمَن كَانَ يَرۡجُواْ لِقَآءَ رَبِّهِۦ فَلۡيَعۡمَلۡ عَمَلٗا صَٰلِحٗا وَلَا يُشۡرِكۡ بِعِبَادَةِ رَبِّهِۦٓ أَحَدَۢا﴾

"De: “Mən də sizin kimi bir insanam. Mənə, sizin məbudunuzun Tək bir ilah olduğu vəhy olunur. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, qoy yaxşı işlər görsün və Rəbbinə etdiyi ibadətlərində heç kəsi Ona şərik qoşmasın!”. (Kəhf 18 surəsi, ayə 110). Uca Allah qüdsi hədisdə belə buyurmuşdur:

«أَنَا أَغْنَى الشُّرَكَاءِ عَنِ الشِّرْكِ، مَنْ عَمِلَ عَمَلًا أَشْرَكَ فِيهِ مَعِي غَيْرِي تَرَكْتُهُ وَشِرْكَهُ».

"Mən, şərik olmağa əsla möhtac deyiləm. Kim bir əməl edərsə və etdiyi əməldə başqa birisini Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm"[1].

3. Həcc və ümrə edən şəxs, vacibi tərk etməmək və harama düşməmək üçün səfərə çıxmazdan əvvəl ümrə, həcc və səfərlə bağlı şəri əhkamları öyrənməlidir. Peyğəmbər, sallallahu əleyhi va səlləm, buyurmuşdur:

---

[1] Hədisi Müslim (2985) rəvayət etmişdir.

«مَنْ يُرِدِ اللهُ بِهِ خَيْرًا يُفَقِّهْهُ فِي الدِّينِ».

"Allah kimin üçün xeyir istəsə, onu dində fəhmli edər"[1].

4. Həcc və ya ümrə edən şəxs, həcc və ümrə xərcləri üçün halal mal (qazanc) seçməlidir. Çünki Uca Allah pakdır və yalnız pak (halal) olanı qəbul edər. Həmçinin, haram mal, duanın qəbul olunmamasına səbəbdir.

5. Bütün günah və asiliklərdən tövbə etmək. Əgər başqalarının — istər namus, istər mal-dövlət, istərsə də başqa hər hansı bir haqqı — onun boynundadırsa, həmin haqları sahiblərinə qaytarmalı və onlardan halallıq almalıdır.

6. Səfərə çıxan şəxsə vəsiyyətini, həmçinin kimdə nə borcu varsa və kimin ona nə borcu varsa yazması müstəhəbdir. Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«مَا حَقُّ امْرِئٍ مُسْلِمٍ لَهُ شَيْءٌ يُوصِي فِيهِ يَبِيتُ لَيْلَتَيْنِ إِلَّا وَوَصِيَّتُهُ مَكْتُوبَةٌ عِنْدَهُ»

"Vəsiyyət et-məyə bir şeyi olan bir müsəlmanın (başının altında) yazılı bir vəsiyyəti ol-ma-yınca (ardıcıl) iki gecə keçirməyə haqqı yoxdur"[2]. Vəsiyyət yazdıqdan sonra onun şahidlər qarşısında təsdiqlənməsi, borclarını ödəməsi, əmanətləri sahiblərinə qaytarması və əgər əmanətləri özündə saxlamalı olarsa, onların razılığını alaraq saxlaması lazımdır.

[1] Hədisi Buxari (2738) və Müslim (1627) rəvayət etmişdir.
[2] Hədisi Əbu Davud (4833) rəvayət etmişdir.

7. Səfərə çıxan şəxsin saleh yoldaşı seçməsi və bu yoldaşın şəri elmi tələbələrindən olmasına həris olması müstəhəbdir. Çünki bu, səfərində, həcc və ümrə ziyarətində uğur qazanmasına və xətalara yol verməməsinə səbəbdir. Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«الرَّجُلُ عَلَى دِينِ خَلِيلِهِ، فَلْيَنْظُرْ أَحَدُكُمْ مَنْ يُخَالِلُ»؛

"Kişi dostunun dini üzərindədir, elə isə, sizdən biriniz kiminlə dostluq etdiyinə diqqət etsin"[1]. Peyğəmbər, sallallahu əleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«لَا تُصَاحِبْ إِلَّا مُؤْمِنًا، وَلَا يَأْكُلْ طَعَامَكَ إِلَّا تَقِيٌّ».

"Yalnız möminlə dostluq et və sənin yeməyini yalnız təqvalı kimsə yesin"[2].

8. Səfərə çıxan şəxsin ailəsi, qohum-əqrəbası və qonşuları ilə vidalaşması müstəhəbdir. Çünki Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«مَنْ أَرَادَ أَنْ يُسَافِرَ فَلْيَقُلْ لِمَنْ يُخَلِّفُ: أَسْتَوْدِعُكُمُ اللَّهَ الَّذِي لَا يُضِيعُ وَدَائِعَهُ»،

"Səfərə çıxmaq istəyən şəxs, geridə qoyduğu kəslərə belə desin:"

«أَسْتَوْدِعُكُمُ اللَّهَ الَّذِي لَا يُضِيعُ وَدَائِعَهُ»

[Əstəudiukumu-llahəl-ləzi lə yu-diyu vadaiuhu] - "Mən sizi, (Özünə həvalə edilmiş) əmanətləri itirməyən Allaha əmanət edirəm!"[3]. Peyğəmbər,

---

[1] Əbu Davud (4832), Tirmizi (2395) rəvayət etmişdir.
[2] Hədisi Tabarani (823) rəvayət etmişdir.
[3] Hədisi İmam Əhməd "Müsnəd" (823) əsərində rəvayət etmişdir.

sallallahu əleyhi və səlləm, səfərə çıxmaq istəyən səhabəsilə vidalaşar və belə deyərdi:

«أَسْتَوْدِعُ اللهَ دِينَكَ وَأَمَانَتَكَ وَخَوَاتِيمَ عَمَلِكَ»،

«أَسْتَوْدِعُ اللهَ دِينَكَ وَأَمَانَتَكَ وَخَوَاتِيمَ عَمَلِكَ»

[Əstəudiu-llahə diynəkə va əmanə-təkə va xavatiymə aməlikə] "Sənin dinini, sədaqətini (əmanətini) və əməllərinin aqibətini Allaha əmanət edirəm!"[1]. Peyğəmbər, sallallahu əleyhi va səlləm, səfərə çıxanlardan kimsə ondan tövsiyə etməsini istəyəndə belə deyərdi:

«زَوَّدَكَ اللَّهُ التَّقْوَى، وَغَفَرَ ذَنْبَكَ، وَيَسَّرَ لَكَ الخَيْرَ حَيْثُ مَا كُنْتَ»

«زَوَّدَكَ اللَّهُ التَّقْوَى، وَغَفَرَ ذَنْبَكَ، وَيَسَّرَ لَكَ الخَيْرَ حَيْثُ مَا كُنْتَ»

[Zəvvadəkə-llahut-təqva va ğafəra zənbəkə va yəssəra ləkəl-xayra həysu mə kuntə]
"Allah sənə təqva tədarükü bəxş etsin, günahını bağışlasın və harada olsan xeyirli olanı sənin üçün asanlaşdırsın!"[2]. Səfərə çıxmaq istəyən bir kişi Peyğəmbərin, sallallahu əleyhi va səlləm, yanına gəlib belə dedi: Ya Rəsulallah! Mənə tövsiyə et!" Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə dedi:

«أُوصِيكَ بِتَقْوَى اللهِ، وَالتَّكْبِيرِ عَلَى كُلِّ شَرَفٍ» فَلَمَّا مَضَى قَالَ: « اللَّهُمَّ ازْوِ لَهُ الْأَرْضَ، وَهَوِّنْ عَلَيْهِ السَّفَرَ».

"Sənə Allahdan qorxmağı və hər bir yüksək yerə qalxdıqda təkbir (Allahu Əkbər) deməyi tövsiyə edirəm". Kişi dönüb getdikdə Peyğəmbər, sallallahu

---

1 Hədisi Tirmizi (3444) rəvayət etmişdir.
2 Hədisi İmam Əhməd "Müsnəd" (9724) əsərində rəvayət etmişdir.

əleyhi va səlləm, belə dedi: "Allahım! Yerini ona yaxınlaşdır (məsafəni qısalt) və səfərini asanlaşdır"[1].

9. Səfərə çıxarkən özü ilə nə zəng (çalğı aləti), nə musiqi alətləri (məzamir), nə də it götürməməlidir. Çünki Əbu Hüreyrənin, Allah ondan razı olsun, rəvayət etdiyi hədisdə Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«لَا تَصْحَبُ الْمَلَائِكَةُ رُفْقَةً فِيهَا كَلْبٌ وَلَا جَرَسٌ».

"Mələklər, aralarında it və ya zəng olan bir camaata yoldaşlıq etməz"[2].

10. Əgər bir kişinin bir neçə arvadı varsa və onlardan biri ilə səfərə çıxmaq istəsə, bu zaman onlar arasında püşk atmalıdır. Püşk kimə düşərsə, onu özü ilə aparmalıdır. Çünki Aişə, Allah ondan razı olsun, belə demişdir:

«كَانَ رَسُولُ اللهِ صلى الله عليه وسلم: إِذَا أَرَادَ سَفَرًا أَقْرَعَ بَيْنَ نِسَائِهِ، فَأَيَّتُهُنَّ خَرَجَ سَهْمُهَا خَرَجَ بِهَا مَعَهُ».

"Rəsulullah, sallallahu əleyhi və səlləm, səfərə çıxmaq istədikdə, zövcələri arasında püşk atardı. Hansının adına püşk çıxardısa, onu özü ilə aparardı"[3].

11. Əgər mümkündürsə, səfərə cümə axşamı günü səhər tezdən çıxması müstəhəbdir. Çünki Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə edərdi.

---

1 Hədisi Müslim (2113) rəvayət etmişdir.
2 Hədisi Buxari (2593) və Müslim (2770) rəvayət etmişdir.
3 Hədisi Buxari (2949) rəvayət etmişdir.

Kəab ibn Malik, Allah ondan razı olsun, belə demişdir:

«لَقَلَّمَا كَانَ رَسُولُ اللهِ صلى الله عليه وسلم يَخْرُجُ إِذَا خَرَجَ فِي سَفَرٍ إِلَّا يَوْمَ الْخَمِيسِ».

"Rəsulullah, sallallahu əleyhi və səlləm, səfərə çıxanda nadir hallar müstəsna olmaqla, adətən cümə axşamı günü səfərə çıxardı"[1].

12. Evdən çıxanda, istər səfər üçün, istərsə də başqa məqsədlə olsun, çıxış duasını oxuması müstəhəbdir. Çıxarkən belə dua etməlidir.

«بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، وَلا حَوْلَ وَلا قُوَّةَ إِلَّا بِاللَّهِ، اللَّهمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ».

بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، وَلا حَوْلَ وَلا قُوَّةَ إِلَّا بِاللَّهِ، اللَّهمَّ إِنِّي أَعُوذُ» بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ»

[Bismilləh, təvakkəltu aləllahi va lə havlə va lə quvvatə illə billəh. Allahummə inni əuzu bikə ən ədillə, av udallə, av əzillə, av uzallə, av azlimə, av uzləmə, av əchələ, av yuchələ aleyyə] -

"Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır! Allahım! Doğru yoldan azmaqdan və ya azdırılmaq-dan, çaşmaqdan və ya çaşdırılmaq-dan, zülm etməkdən və ya zülmə məruz qal-maq-dan, cahil olmaqdan və ya mənə qarşı ca-hillik edilməsindən Sənə sığınıram".[2]

---

1 Hədisi Əbu Davud (5094) rəvayət etmişdir.

2 Səfərin məşəqqətindən.Yəni: Səfərin çətinliyindən və ağırlığından. Bax: (əl-İfisah an məani əs-Sıhah, cild 4, səhifə: 284).

13. Səfərə çıxan şəxsə, minik heyvanına yaxud avtomobilinə yaxud təyyarəyə və ya digər nəqliyyat vasitələrinə minərkən, səfər duasını oxuması müstəhəbdir. Bu dua belədir:

«اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ ثُمَّ يَقُولُ: {سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ} [الزخرف: 14] اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِي سَفَرِنَا هَذَا الْبِرَّ وَالتَّقْوَى، وَمِنَ الْعَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا السَّفَرَ، وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالْخَلِيفَةُ فِي الْأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ المنظر، وسوء الْمُنْقَلَبِ فِي الْمَالِ وَالْأَهْلِ..».

اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ ثُمَّ يَقُولُ} :سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا» كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ {اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِي سَفَرِنَا هَذَا الْبِرَّ وَالتَّقْوَى، وَمِنَ الْعَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا السَّفَرَ، وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالْخَلِيفَةُ فِي الْأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ المنظر، وسوء الْمُنْقَلَبِ فِي الْمَالِ وَالْأَهْلِ..».

[Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər]. ﴿Subhanəl-ləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrinin. Va innə ilə Rabbinə ləmunqalibun﴾. [Alla-hummə in-nə nəs-əlukə fi səfərinə həzə əl-birra vət-təqva va minəl aməli mə tərda. Allahum-mə həvvin aleynə səfəranə həzə vatvi an-nə budəhu. Allahummə əntəs-sahibu fis-səfəri val-xaliyfətu fil-əhli. Allahummə inniy əuzu bikə min vasais-səfəri va kə-a-bətil-mənzari va suil-munqaləbi fil-mali vəl-əhl] -

"Allah ən Böyükdür, Allah ən Böyük-dür, Allah ən Böyükdür. Sonra belə deyir: "Bunu bizə ram edən [Allah] pak və müqəd-dəsdir. [Yoxsa] bizim ona gücümüz çat-mazdı. Şübhəsiz ki, biz Rəb-bimi-zə

qayıdacağıq" (Zuxruf 43 surəsi, ayə 14). "Allahım! Bu səfərimiz-də Səndən yaxşı-lıq, təqva və razı qalaca-ğın əməl diləyirik. Alla-hım! Bu səfərimizi bi-zim üçün rahat et və onun uzaq-lığını bizə ya-xın et. Allahım! Səfərdə dost və ailə-miz üçün hami Sənsən. Allahım! səfərin məşəqqətindən[1], məyus edən mənzərədən[2], malda və ailədə xo-şa-gəl-məz dönüşdən[3] Sənə pənah aparıram"[4].

14. Səfərə çıxan şəxsin, təkbaşına, yoldaşsız səfərə çıxmaması müstəhəbdir. Çünki Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə buyurmuşdur:

«لَوْ يَعْلَمُ النَّاسُ مَا فِي الْوَحْدَةِ مَا أَعْلَمُ مَا سَارَ رَاكِبٌ بِلَيْلٍ وَحْدَهُ».

"Əgər insanlar təklik (yalnız səfər etmək) barədə mənim bildiyimi bilsəydilər, heç bir minik sahibi gecə vaxtı təkbaşına səfərə çıxmazdı"[5].

15. Səfərə çıxan kimsələr, aralarında birliyi təmin etmək, razılaşmalarını asanlaşdırmaq və məqsədlərinə çatmaq üçün bir nəfəri əmir (rəhbər) təyin etməlidirlər. Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə buyurmuşdur:

«إِذَا خَرَجَ ثَلَاثَةٌ فِي سَفَرٍ فَلْيُؤَمِّرُوا أَحَدَهُمْ».

---

[1] Məyus edən mənzərədən. Yəni: Pis görkəmdən və hüzn səbəbilə qəlbin qırılmasından. Bax: (əl-İfisah an məani əs-Sıhah, cild 4, səhifə: 284).

[2] Dönüşdən. Yəni: Qayıdışdan. Bax: (əl-İfisah an məani əs-Sihah, cild 4, səhifə: 284).

[3] Hədisi İmam Əhməd "Müsnəd" (6374) əsərində rəvayət etmişdir.

[4] Hədisi Buxari (2998) rəvayət etmişdir.

[5] Hədisi Əbu Davud (2608) rəvayət etmişdir.

"Əgər üç nəfər səfərə çıxarsa, onlardan birini əmir təyin edin"[1].

16. Səfərə çıxan şəxs, Allahın ona vacib buyurduğu ibadətləri yerinə yetirməyə, haramlardan çəkinməyə və gözəl əxlaqla davranmağa səy göstərməlidir. O, köməyə ehtiyacı olanlara yardım etməli, elmə ehtiyacı olanlara və soruşanlara elm öyrətməli, malını isə həm öz ehtiyaclarını, həm də qardaşlarının və digər insanların ehtiyaclarını təmin etmək üçün səxavətlə sərf etməlidir.

17. Səfərə çıxan şəxs, səfər zamanı xərcləri və ehtiyacları qarşılamaq üçün daha çox nəfəqə götürməlidir. Çünki səfərdə vəziyyətlər dəyişə bilər və yeni ehtiyaclar yarana bilər.

18. Bütün bunları edərkən, üzünü gülərüz saxlamağa, ruhunu xoş tutmağa və yoldaşlarını sevindirməyə çalışmalı, beləliklə, hər kəsin sevimlisi və yaxın dostu olmalıdır.

19. O, yoldaşları arasında hörmət qazanmaq və onların gözündə böyük bir şəxsiyyətə sahib olmaq üçün, soyuq münasibətləri və fikirlərinə qarşı çıxmalarına səbir göstərməli və onları ən gözəl şəkildə idarə etməlidir.

20. Müsafirlər bir yerdə gəldikləri zaman bir-birlərinə yaxın durmaları, bir yerdə olmaları müstəhəbdir. Çünki Peyğəmbərin, sallallahu əleyhi

[1] Hədisi İmam Əhməd "Müsnəd" (17736) əsərində rəvayət etmişdir.

və səlləm, bəzi səhabələri bir yerə gəldiklərində vadilərə və dərələrə dağılışardılar. Bunu görən Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə buyurdu:

«إِنَّ تَفَرُّقَكُمْ فِي الشِّعَابِ وَالْأَوْدِيَةِ إِنَّمَا ذَلِكُمْ مِنَ الشَّيْطَانِ»،

"Sizin dərələrə və vadilərə bu dağılışmağınız, şeytandandır"[1]. Bundan sonra səhabələr bir-birlərinə o qədər yaxın dayanırdılar ki, hətta üstlərinə bir örtük atılsaydı, hamısını örtərdi.

21. Səfərdə və ya başqa bir yerdə mənzil başına çatdıqda, Peyğəmbərdən, sallallahu əleyhi və səlləm, sabit olmuş dualarla dua etmək müstəhəbdir. Peyğəmbər, sallallahu əleyhi və səlləm, mənzil başına çatdıqda belə deyərdi:

«أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ»؛

«أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ»

[Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləq] "Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!".[2] "Əgər o bu duanı deyərsə, həmin mənzilindən köçənə qədər ona heç bir şey zərər toxundura bilməz".

22. Səfərə çıxan şəxsin, yüksək yerlərə qalxdıqda təkbir (Allahu Əkbər) gətirməsi, alçaq yerlərə və dərələrə endikdə isə təsbih (Sübhənəllah) deməsi müstəhəbdir. Cabir, Allah ondan razı olsun, belə demişdir: "Biz (səhabələr) yüksək bir yerə

[1] Hədisi Müslim (2708) rəvayət etmişdir.
[2] Hədisi Buxari (2994) rəvayət etmişdir.

qalxdıqda: “Allahu Əkbər” deyər, (hər hansı bir vadiyə) endikdə isə “Sübhənəllah!”– deyərdik”[1]. Təkbir gətirərkən səslərini ucaltmasınlar. Çünki Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə demişdir:

«يَا أَيُّهَا النَّاسُ ارْبَعُوا عَلَى أَنْفُسِكُمْ فَإِنَّكُمْ لَا تَدْعُونَ أَصَمَّ وَلَا غَائِبًا إِنَّهُ مَعَكُمْ إِنَّهُ سَمِيعٌ قَرِيبٌ».

"Ey insanlar! Özünüzə yazığınız gəlsin! Çünki siz nə kar, nə də uzaqda olan birini çağırmırsınız. Həqiqətən, O sizinlədir, Eşidən və Yaxındır"[2].

23. Səfər zamanı, xüsusilə də gecənin əvvəlində yol getmək müstəhəbdir. Çünki Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə buyurmuşdur:

««عَلَيْكُمْ بِالدُّلْجَةِ؛ فَإِنَّ الْأَرْضَ تُطْوَى بِاللَّيْلِ».

"Gecə vaxtı səfərə çıxın. Çünki yer gecə vaxtı (qatlanır) daha sürətlə qət edilir"[3].

24. Səfər zamanı çoxlu dua etməsi müstəhəbdir. Çünki Peyğəmbər, sallallahu əleyhi və səlləm, belə demişdir:

«ثَلَاثُ دَعَوَاتٍ مُسْتَجَابَاتٌ لَا شَكَّ فِيهِنَّ: دَعْوَةُ الْمَظْلُومِ، وَدَعْوَةُ الْمُسَافِرِ، وَدَعْوَةُ الْوَالِدِ عَلَى وَلَدِهِ».

"Üç dua vardır ki, onların qəbul olunacağında heç bir şübhə yoxdur: Məzlumun duası, müsafirin duası və valideynin övladına etdiyi dua"[4].

---

[1] Hədisi Buxari (2993) rəvayət etmişdir.
[2] Hədisi Əbu Davud (2571) rəvayət etmişdir.
[3] Hədisi İmam Əhməd "Müsnəd" (10771) əsərində rəvayət etmişdir.
[4] Hədisi Bəzzar "Müsnəd" (10068) əsərində rəvayət etmişdir.

***

## İkinci: Səfərdə təharət.

Müsafirin təmizliyinə riayət etməsi, kiçik hədəs halında dəstəmaz alması və cənabətdən sonra qüsl etməsi vacibdir.

Əgər su tapmazsa və ya yanında yemək və içki üçün lazım olan az miqdarda su varsa, təyəmmüm etməlidir.

Təyəmmümün qaydası: İki əlini yerə vurub sonra üzünə və əllərinə məsh edir.

Təyəmmüm təmizliyi müvəqqəti bir təmizlikdir. Su tapılan anda təyəmmüm qüvvədən düşür və su ilə dəstəmaz almaq və ya qüsl etmək vacib olur. Əgər bir şəxs cünubluq halına görə təyəmmüm edərsə və sonra su tapsa, qüsl alması vacibdir. Əgər böyük subaşına çıxdıqdan sonra təyəmmüm edərsə və sonra su tapsa, bu halda dəstəmaz alması vacibdir. Hədisdə belə buyurulur:

«الصَّعِيدُ الطَّيِّبُ وَضُوءُ المُسْلِمِ وَإِنْ لَمْ يَجِدِ المَاءَ عَشْرَ سِنِينَ، فَإِذَا وَجَدَ المَاءَ فَلْيَتَّقِ اللَّهَ، وَلْيُمِسَّهُ بَشَرَتَهُ».

“Pak torpaq (yer) müsəlmanın təmizləyicisidir. Əgər on il su tapmasa belə (təyyəmmüm onun üçün kifayətdir). Amma nə vaxt su tapsa, Allahdan qorxsun və onu (suyu) dərisinə sürtsün”[1].

Xüflərin üzərində məsh etmək Quran, sünnə və əhli-sünnənin icması ilə şəriətə müvafiqdir.

---

[1] Hədisi Buxari (1804) və Müslim (1927) rəvayət etmişdir.

Xüflər və buna bənzər ayağa geyilən vasitələr üzərində məsh etmək üçün müəyyən şərtlər tələb olunur. Bu şərtlər aşağıdakılardır:

1. Xüflərin və ya corabların halal və təmiz olması.

2. Xüflərin və ya corabların təharət halında (dəstəmazlı) geyinmək.

3. Xüflərin və ya corabların dəstəmazda yuyulması vacib olan ayaq hissəsini (iki topuğu) örtməsi.

4. Məsh yalnız kiçik hədəsdə (yəni dəstəmaz pozulduqda) edilə bilər. Cənabət və qüsl vacib edən digər hallarda xüflər üzərinə məsh etmək icazəli deyil.

5. Məsh şəriətə görə müəyyən edilmiş müddət daxilində edilməlidir. Bu müddət muqim (yəni səfərdə olmayan şəxs) üçün bir gün və bir gecə, müsafir (səfərdə olan şəxs) üçün isə üç gün və üç gecədir. Daha doğru rəyə əsasən bu müddət, hədəsdən (dəstəmazın pozulmasından) sonra ilk dəfə məsh etdiy andan başlayır. Bu müddət muqim üçün 24 saatdan, müsafir üçün isə 72 saatdan sonra başa çatır.

Xüflər və ya corablar üzərinə məsh üç halda batil sayılır:

1. Cənabət kimi qüslu vacib edən bir hal baş verdikdə, xüflər və ya corablar üzərinə məsh batil sayılır və ayaqları yumaq vacib olur.

2. Əgər məsh etdikdən sonra xüfləri və ya corabları çıxarsa, məsh batil olur.

3. Məsh, şəriət tərəfindən müəyyən edilmiş müddət bitdikdə, batil olur.

***

## Üçüncü: Səfərdə namazın qısaldılması ilə bağlı hökmlər:

Səfərdə namazı qısaltmaq tam qılmaqdan daha fəzilətlidir. Lakin səfərdə olan şəxs dörd rükətli namazı tam, yəni dörd rükət olaraq qılarsa, namazı səhihdir (doğrudur), amma daha fəzilətli olanı tərk etmiş olur.

Müsafir, kəndinin və ya şəhərinin bütün evlərini tərk etdikdən sonra namazı qısalda bilər. Bu, cümhur (əksər) alimlərin rəyidir.

Əgər namaz vaxtı girdikdən sonra səfərə çıxarsa, o namazı qısalda bilər. Çünki o, namazın vaxtı çıxmamışdan əvvəl səfərə başlamışdır.

Zöhr, əsr, məğrib və işa namazlarını birləşdirmək məsələsinə gəldikdə, bu, səfərdə olan bir şəxsin ehtiyacı olduğu təqdirdə sünnədir. Əgər o, səfərdə olduğu zaman yol getməsi çətinləşərsə və səfəri davam edərsə, o zaman özünə ən rahat olan şəkildə, namazı ya əvvəlki, ya da sonrakı namazla birləşdirərək qıla bilər.

Əgər səfərdə olan şəxs namazları birləşdirməyə ehtiyac duymursa, o zaman namazları birləşdirməz. Məsələn: Əgər müsafir bir yerdə qalırsa və yalnız ikinci namazın vaxtı girdikdən sonra oradan çıxmağı planlaşdırırsa, o zaman

namazları birləşdirməmək daha əfzəldir, çünki buna ehtiyacı yoxdur. Buna görə də, Peyğəmbər, sallallahu əleyhi va səlləm, Vida həcci zamanı Mina da qalarkən namazları birləşdirmədi, çünki buna ehtiyac yox idi.

Amma nafilə namazlarına gəldikdə isə müsafir olan şəxs, muqim (səfərdə olmayan) şəxs kimi, hər hansı bir nafilə namazını qıla bilər. O, duha namazı, gecə namazı, vitir və digər nafilə namazlarını qıla bilər. Yalnız zöhr, məğrib və işa namazlarının ratibə (sünnə) namazlarını qılmaz, çünki səfərdə bu namazları qılmaq sünnə deyildir.

Səfərdə olan şəxs, hər hansı bir nəqliyyat vasitəsində — təyyarə, avtomobil, gəmi və digər nəqliyyat vasitələrində — nafilə namazlarını qıla bilər. Lakin fərz namazını qılmaq üçün nəqliyyat vasitəsindən enmək vacibdir, yalnız üzürlü bir hal olduğu zaman bu hökm müstəsnadır.

Səfərdə olan şəxsin, muqim (yəni səfərdə olmayan) şəxsin arxasında namaz qılması səhihdir. Müsafir olan şəxs, imamı kimi namazı tam qılmalıdır — istər bütün namaza yetişsin, istər bir rükətinə, istərsə də daha azına. Hətta əgər o, salamdan əvvəl son təşəhhüdə yetişsə belə, namazı tam şəkildə qılmalıdır. Bu, alimlər arasında mövcud olan iki rəy içərisində ən doğru olanıdır.

***

## Dördüncü: Həcc, ümrə və digər səfərlərdən qayıdarkən riayət edilməli ədəblər.

Müsafir, ehtiyac olmadığı təqdirdə səfərdə uzun müddət qalmaqdan çəkinməli və geri dönməyə tələsməlidir. Çünki Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«السَّفَرُ قِطْعَةٌ مِنَ الْعَذَابِ، يَمْنَعُ أَحَدَكُمْ طَعَامَهُ وَشَرَابَهُ وَنَوْمَهُ، فَإِذَا قَضَى نَهْمَتَهُ فَلْيُعَجِّلْ إِلَى أَهْلِهِ».

"Səfər əzabın bir par-ça-sıdır. O, sizdən birinin yeməyinə, içməyinə və yuxusuna mane olur. Ona görə də, kim səfərdə ehtiyacını (işini) bitirərsə, ailəsinin yanına qayıtmağa tələssin!"[1].

Müsafir vətəninə qayıtmaq istədikdə, nəqliyyat vasitəsinə mindiyi zaman səfər duasını oxuyur və ona əlavə olaraq aşağıdakı duanı da söyləyir:

«آيِبُونَ تَائِبُونَ عَابِدُونَ لِرَبِّنَا حَامِدُونَ».

«آيِبُونَ تَائِبُونَ عَابِدُونَ لِرَبِّنَا حَامِدُونَ»

[Əyibunə, təibunə, abidunə, li Rabbinə həmidun] "(Biz) geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik!"[2].

Səfərdən geri dönərkən, Peyğəmbərdən, sallallahu əleyhi və səlləm, sabit olan duanı demək müstəhəbdir. O, döyüşdən, həccdən və ya ümrədən qayıdarkən hər yüksəkliyə qalxdıqda üç dəfə təkbir (Allahu Əkbər) deyər və sonra belə söyləyərdi:

---

[1] Hədisi Buxari (1797) və Müslim (1342) rəvayət etmişdir.
[2] Hədisi Buxari (4116) rəvayət etmişdir.

«لَا إِلَهَ إِلَّا اللهُ، وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، سَاجِدُونَ، لِرَبِّنَا حَامِدُونَ، صَدَقَ اللهُ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الْأَحْزَابَ وَحْدَهُ».

«لَا إِلَهَ إِلَّا اللهُ، وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ، قَدِيرٌ، آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، سَاجِدُونَ، لِرَبِّنَا حَامِدُونَ صَدَقَ اللهُ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الْأَحْزَابَ وَحْدَهُ».

[Lə ilahə illəllahu vəhdahu lə şəri-kə lə-hu, ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir. Əyibunə, təibu-nə, abidunə, li Rabbinə həmidun. Sadaqal-lahu va'dəhu va nasara abdəhu va həzə-məl-əh-zabə vahdəhu] -

"Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəri-ki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. (Biz) geri dönən-lər, tövbə edənlər, ibadət edənlər, səcdə edənlər və Rəbbimizə həmd edənlərik! Allah vədinə sadiq oldu, qu-luna kömək etdi və (düşmənlərdən olan) dəstə-ləri tək Özü məğlub etdi!"[1].

Vətənini gördükdə, aşağıdakı duanı deməsi müstəhəbdir:

«آيِبُونَ تَائِبُونَ عَابِدُونَ لِرَبِّنَا حَامِدُونَ»،

«آيِبُونَ تَائِبُونَ عَابِدُونَ لِرَبِّنَا حَامِدُونَ»

[Əyibunə, təibunə, abidunə, li Rabbinə həmidun]

"(Biz) geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik!"[2]. O, bu duanı vətəninə

[1] Hədisi Buxari (1797) və Müslim (1342) rəvayət etmişdir.
[2] Hədisi Müslim (715) rəvayət etmişdir.

daxil olana qədər təkrarlayır. Çünki Peyğəmbər, sallallahu əleyhi və səlləm, bunu belə edərdi.

Əgər bir şəxs ailəsindən uzun müddət uzaqda qalmışsa və qayıdışı gecə vaxtına təsadüf edirsə, zəruri bir səbəb olmadığı və ailəsini bu barədə əvvəlcədən məlumatlandırmadığı halda, onların yanına gecə gəlməməlidir. Çünki Peyğəmbər, sallallahu əleyhi va səlləm, bunu qadağan etmişdir. Cabir bin Abdullah, Allah ondan və atasından razı olsun, belə demişdir:

«نَهَى رَسُولُ اللهِ صلى الله عليه وسلم أَنْ يَطْرُقَ الرَّجُلُ أَهْلَهُ لَيْلًا»،

"Rəsulullah, sallallahu əleyhi va səlləm, kişinin ailəsinin yanına gecə vaxtı (xəbərsiz şəkildə) gəlməsini qadağan etmişdir"[1]. Bu qadağadakı hikmət isə digər rəvayətdə izah olunmuşdur:

«حَتَّى تَمْتَشِطَ الشَّعِثَةُ، وَتَسْتَحِدَّ الْمَغِيبَةُ»،

"Dağınıq saçlı qadın[2] saçını daraya, ərindən uzun müddət ayrı qalmış qadın isə təmizlənə bilsin deyə"[3]. Başqa bir rəvayətdə isə belə deyilir:

«نَهَى رَسُولُ اللهِ صلى الله عليه وسلم أَنْ يَطْرُقَ الرَّجُلُ أَهْلَهُ لَيْلًا، يَتَخَوَّنُهُمْ أَوْ يَلْتَمِسُ عَثَرَاتِهِمْ».

---

1 Dağınıq saçlı qadın. Yəni: Uzun müddət yağ və daraqla məşğul olmamış saçları dağınıq halda olan qadın.

İstihdəd. Yəni: Təmizlik məqsədilə bədən tüklərini götürmək və şəxsi gigiyenaya diqqət yetirmək. Ərindən uzun müddət ayrı qalmış qadın. Yəni: Əri yanında olmayan qadın.

Bax: əl-Əsbahaninin "ət-Təhrir fi Şarh Sahih Muslim" əsəri (səh: 292).

2 Hədisi Nəsai (9099) rəvayət etmişdir.

3 Hədisi Müslim (715) rəvayət etmişdir.

"Rəsulullah, sallallahu əleyhi va səlləm, kişinin ailəsinin yanına, onlardan şübhələnərək və ya eyiblərini axtararaq, gecə vaxtı (xəbərsiz şəkildə) gəlməsini qadağan etmişdir"[1].

Səfərdən qayıdan şəxsin, yaxınlıqdakı məsciddən başlayıb orada iki rükət namaz qılması müstəhəbdir. Çünki Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə etmişdir.

Səfərdən qayıdan şəxsin ailəsi, uşaqları və qonşuları ilə mehriban davranması, onlar onu qarşıladıqda isə xoş münasibət göstərməsi müstəhəbdir. İbn Abbas, Allah onlardan razı olsun, belə demişdir: Peyğəmbər, sallallahu əleyhi va səlləm, Məkkəyə gəldikdə, Bəni Abdulmüttəbin uşaqları onu qarşılamış, Peyğəmbər, sallallahu əleyhi va səlləm, onlardan biri qolları arasına, digərini isə arxasına almışdır. Abdullah bin Cəfər, Allah ondan razı olsun, isə belə demişdir:

"كَانَ النَّبِيُّ صَلَّى الله عليه وَسَلَّمَ إِذَا قَدِمَ مِنْ سَفَرٍ تُلُقِّيَ بِنَا، قَالَ: فَتُلُقِّيَ بِي وَبِالْحَسَنِ أَوْ بِالْحُسَيْنِ، قَالَ: فَحَمَلَ أَحَدَنَا بَيْنَ يَدَيْهِ وَالْآخَرَ خَلْفَهُ حَتَّى دَخَلْنَا الْمَدِينَةَ".

"Peyğəmbər, sallallahu əleyhi va səlləm, səfərdən qayıdanda biz onu qarşılardıq. Cəfər dedi: Mən, Həsən yaxud Hüseyn onu qarşılardıq. Cəfər dedi: Peyğəmbər, sallallahu əleyhi və səlləm, bizdən birini miniyinin üzərində öz qarşısında, digərini isə arxasında oturdaraq Mədinəyə daxil oldu"[2].

---

1 Hədisi Müslim (2428) rəvayət etmişdir.
2 Hədisi Beyhəqi "Sünən Kubra" (11946) əsərində rəvayət etmişdir.

Hədiyyə vermək müstəhəbdir. Çünki o, qəlbləri yumuşaldır və kin-küdurəti aradan qaldırır. Hədiyyəni qəbul etmək və ona (hədiyyə ilə) qarşılıq vermək də müstəhəbdir. Hədiyyəni, şəriətə uyğun bir maneə olmadığı təqdirdə, rədd etmək isə məkruhdur. Buna görə də, Peyğəmbər, sallallahu əleyhi va səlləm, belə buyurmuşdur:

«تَهَادُوا تَحَابُّوا».

"Bir-birinizə hədiyyə verin və (beləliklə) bir-birinizi sevin"[1]. Hədiyyə, müsəlmanlar arasında sevgini artıran səbəblərdən biridir.

Səfərdən qayıdan şəxs vətəninə çatdıqda, bir-birini qucaqlamaq müstəhəbdir. Çünki bu, Ənəsin, Allah ondan razı olsun, rəvayətinə əsasən, Peyğəmbərin, sallallahu əleyhi va səlləm, səhabələrindən belə nəql edilmişdir. "Səhabələr bir-biriləri ilə qarşılaşdıqda əl sıxar, səfərdən qayıtdıqda isə qucaqlaşardılar"[2].

Perğəmbərimiz Muhammədə Allahın salatı və salamı olsun.

---

1 Hədisi Tabarani "əl-Əvsat" (97) əsərində rəvayət etmişdir.
2 Hədisi Buxari (3116) və Müslim (100) rəvayət etmişdir.

# Mündəricat

Səfər ədəbləri və hökmləri.................................................................2
Birinci: Səfər ədəbləri. .......................................................................2
İkinci: Səfərdə təharət...................................................................... 14
Üçüncü: Səfərdə namazın qısaldılması ilə bağlı hökmlər: .... 16
Dördüncü: Həcc, ümrə və digər səfərlərdən qayıdarkən riayət edilməli ədəblər.......................................................................... 18

az401v3.0 - 04/09/2026